# YARIMÇIQ ÖMÜRƏ ELEGİYA,

## yaxud sevda notunda "Bir bülbülün türküsü" poeması...



*Qurban BAYRAMOV,*
*ədəbiyyatşünas tənqidçi*

**(Fəlsəfi fikir düşüncəmizin poetik formatda "Fəxriyyə"si...)**

*"Yenə qonub şah budağa,*
*Nə sızlarsan belə, bülbül?!*
*Vəfasızdır yarın sənin,*
*Yanıb dönmə külə, bülbül!*

**(Xalq şairi Məmməd Rahim)**

Neçə illər bundan qabağın sözüdür (1915) olduğu kimi yenidən təkrar edirəm: "Lap əvəldən başlamaq istəyirəm. Elə, Əli Rza Xələflini tanıdığım vaxtdan. Daha bu imzaya, bu ada şair, yazıçı, publisist, jurnalist, tədqiqatçı adlarını əlavə etmədən. Çünki, Əli Rza Xələfli imzası müasir ədəbi və ictimai mühitdə özünə elə köklü-köməcli yer tutubdur ki, adı çəkilən kimi bunların hamısı yada düşür. Özü də, həqiqət naminə, onu da deyim ki, sıraladığım bu yaradıcılıq sahəsinin hər birində Əli Rza Xələfli özünəməxsus, orjinal bir məqamdadır və elə, onun bircəsi ilə də, məşğul olsayıdı tanınacağıdı, seviləcəyidi, rəğbət doğuracağıdı...

Səhv etmirəmsə, buna yaradıcılıq polifonizmi deyirlər, başqa sözlə, Əli Rza Xələfli çoxşaxəli yaradıcılıq imkanlarına malik "qələmsiz" qələm adamıdır və mən özüm də, elə əvvəldən onu bu cürə tanımışam... "Qələmsiz qələm adını" ifadəsini də, deyəsən, onun haqqında ilk dəfə mən işlətmişəm, özü də, bir əlavə ilə, demişəm ki, Əli Rza Xələfli qədim Roma filosofları kimi, nə yaradırsa, bir əli cibində, bir əlində siqaret tutaraq qələmsiz-kağızsız diktə edir. İndi də, bu fikri improvizə edərək, əlavə edirəm ki, nə yaradırsa şifahi şəkildə yaradır. Elə ona görə də, onun bütün yaradıcılığı şifahi xalq yaradıcılığı təkin şirin, cazibədar və diqqətçəkəndir...

Bu sözləri də, onun haqqında mən yazmışam və təkrar etməkdə məqsədim budur ki, fikrimi gəlişigözəl söz təkin yox, sabit qənaətim təkin irəli sürmüşəm: "Mənim üçün (həmçinin eləcə də onu tanıyanlar üçün də) heç bir metaforaya sığışmayan bir qələm əhli, ürək və əqidə dostum var - bu, şair, yazıçı, publisist-jurnalist, tədqiqatçı-tənqidçi Əli Rza Xələflidir! Bu adın, bu imzanın özü müasir ədəbi prosesdə həyatı bədii-fəlsəfi dərkin və inikasın bütöv bir sistemini özündə ehtiva etməyə qadirdir!.. Əli Rza Xələfli adı, imzası ədəbi-bədii siferada ülfət və ünsiyyət mücəssəməsidir! Ülfət və ünsiyyət intiqralının bütün kodları onun ürəyinin, qəlbinin döyüntüləri ilə kodirovka ola bilər!.."

Rəsmiyyətə qalanda isə Əli Rza Xələfli (Əzizli Əlirza Zal oğlu) Əli Rza Xələfli 1953-ci iloktyabrın 1-də (dekabrın 7-də) Cəbrayıl rayonunun Xələfli kəndində, çoxuşaqlı,halalzəhmətkeş, xalq müdriki, çoban Zal kişinin ailəsində doğulmuşdur. 1975-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, doğulduğu rayonun Şahvəlli, Tatar və Aşağı Xələfli kəndlərində müəllim işləmişdir. Həmin illərdəki pedaqoji fəaiyyətinə görə "Qabaqcıl maarif xadimi" fəxri adına layiq görülmüşdür.

1980-ci illərin əvvəlindən mətbuatda çalişir. 1980-1993-cü illərdə "Xudafərin", "Qoşa qanad", "Qarabağ" və "Həyat" qəzetlərində xüsusi müxbir, şöbə müdiri və redaktor əvəzi vəzifələrində işləmişdir.

2002-ci ildə "Qızıl qələm" medalı mükafatına, 2003-cü ildə "Məmməd Araz"ali ədəbi mükafatına, 2004-cü ildə Azərbaycan Yazıçılar Birliyi Bədii Ədəbiyyatı Təbliq Bürosunun "Qılınc və qələm" yaddaş mükafatına, 2008-ci ildə Beynəlxalq Rəsul Rza mükafatına, 2010-cu ildə Şahmar Əkbərzadə adına Beynəlxalq Ədəbiyyat mükafatına layiq görülmüşdür.

2002-ci ildə Əli Rza Xələfli Azərbaycan Yazıçıları və 1984-cü ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvü, 1980-cı ildən Qabaqcıl maarif xadimi, 2010-cu ildə isə Prezident təqaüdçüsüdür. 1999-ci ildən Kredo qəzetinin baş redaktorudur. Zəngin və coşğun yaradıcılıq aləminin yiyəsidir. Ədəbiyyatın müxtəlif janrlarında yazılmış onlarla kitabın - hərəsinin də özünəməxsus məna çalarları, tarixi gerçəkliklərdən qidalanıb bu günümüzə və gələcəyimizə işıq salan ictimai yükü olan, azərbaycançılıq dəyərlərini daşıyan "Karvan körpüdən keçir", "Baş daşımın yazıları", "Yurdun övladları", "Sözə doğru", "Ocağımın işığı", "Həsrət körpüsü", "Dünyanın söz üzü", "Dilimiz - varlığımız", "Axtala əfsanəsi", "Meyar", "Arzulara dəyən güllə", "Od", "Həyatın Dastanı...", "Bu dünyanın Mehmanısan", "Üçüncü dünyanın qorxusu", "Söz içində söz", "Dünya yazana qaldı", "Döyüşçü əfsanəsi", "Araz ağrısı", "Damcılı", "Əbədi həyat arzusu", "Tənqidçinin azərbaycançılıq idealı", "Üzü Qarabağa", "Qiyamətdən bir gün əvvəl", "Bir ayrılıq odu var", "Göy üzündə səs"və sairə, çoxu da, fiosofanə fikir yüklü ədəbi-bədii kitablarınmüəllifidir... Bu kitabların dəyəri tərbiyəedici, yolgöstərici, dərketdirci xüsusiyyətləri, təlqini gücü ilə ölçüyə gəlməzdir... Əlirzanın yaradıcılığı ideya-estetik cəhətdən milli düşüncəni oyadan, milli ləyaqəti saflaşdıra-saflaşdıra yüksəldən ekspressiv yaradıcılıq qismindədir...

Ədəbi mühitdə onun yaradıcılığını, xüsusən də, poeziyasını "dünyaya, insana, tanrıya sevginin qaynağı" hesab edənlər də var...

Əli Rza Xələflinin yaradıcılığı da, həmişə ədəbi mühitin diqqətində olub, sayılan-seçilən imzalarla haqqında iki-üç kitablıq məqalələr yazılıb, Sabir Başirovun "Əli Rza Xələfli: ədəbi yol - əbədi yol", Mədəd Çobanov və Müşfiq Çobanlının "Xələflinin yaradıcılıq yolu" kitabları nəşr edilibdir...

Başqa sözlə, Zal oğlu Əli Rza Xələfli görəvli bir ziyalıdır... Bir qələm əhli, istedad vəeridusiya sahibi kimi onun öz kredosu var və özü bunu belə müəyyənləşdiribdir: "Məni danışdırmağın bir yolu var: istər ecazkar lövhəsi, şimşəyi, yağışı, günəşi... ilə təbiət olsun, istərsə də ruhi-mənəvi aləmi, sənəti, qüdrəti... ilə insan - bütövlükdə tarix, incəsənət, ədəbiyyat... məni heyrət içində qoysun".

"...Heyrət , ey büt!!" nidası ona dahi babalarından qalan ilham çağırışıdır!! Əli Rzanın fikiridir, o sözə müqəddəs varlıq təkin, əbədiyaşar güc-qüvvət kimi yanaşır, "Söz bizim ünvanımızdır!" - deyir; "Sözdən gəlib, sözə gedirik!" - deyir!! ; "Dilini sevən millətini sevər!" - deyir! "Söz bilənin sözünə qüvvət!" - deyir! Ona görə də, içi mən qarışıq, hamı bu qənaətdədir ki, Əli Rza Xələfli "Kredo" qəzeti ilə birlikdə sözün - kəlamlı sözün aynasıdır... Onun haqqında deyilmiş bir fikir də, gözümün önündə fırlanır: "Əlirza müəllimin sözü özündən, özü də sözündən boylanır. Onun özünü tanımaq üçün sözünü tanımaq kifayət edir!!" (Nəriman Mahmud).

Məqamı gəlmişkən, xatırladım ki, bu məqaləni yazarkən Əli Rza haqqında səslənmiş bir sıra fikirləri nəzərdən keçirdim. Tanınmış qələm dostları, ədəbiyyatın hamiləri Əli Rza Xələflini dərin biliyə, zəngin söz ehtiyatına, yüksək yaradıcılıq temperamentinə, orijinal erudisiyaya və hüdudsuz təxəyyülə malik olan bir ziyalı kimi səciyyələndiriblər. «Bir institut qədər xidmət» (akademik B.Nəbiyev), «açıq təfəkkür sahibi», «ideyalarında, düşüncələrində rasional keyfiyyətlər»lə zəngin sənətkar, bizi xalqın ruhunun ifadəçisi olan canlı, sadə və doğma dilimizin poetik cazibəsində saxlamaq gücünə malik (Əməkdar elm xadimi, professor Q.Kazımov), «bütöv bir mərhələ yaradan» (professor N.Şəmsizadə), «ədəbiyyatın ən müxtəlif janrlarında fədakarlıqla çalışan», "od nəfəsli sənətkar" (professor T.Salamoğlu), «ədəbiyyat salnaməsi» (Xalq şairi Z.Yaqub), «ən çətin dövrlərdə də mədəniyyəti, ədəbiyyatı yaşadan, fədakarcasına bu dəyərlərin ağır yükünü çiynində daşıyan" (AMEA-nın həqiqi üzvü, yazıçı, publisist, tədqiqatçı, ictimai xadim R.Hüseynov) , "ensiklopedik bilik və analitik təfəkkür sahibi" (filologiya elmlər doktoru, professor İslam Qəribli), "dərin istedada, qibtə olunacaq dərəcədə yaradıcılıq enerjisinə, zəhmətsevərliyə və fəal həyat mövqeyinə malik olan şəxsiyyət" (Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov), "səriştəli ədəbiyyatşünas kimi onu müasirlərindən fərqləndirən ən ümdə cəhət onun yazılarının səmimiyyətində, birbaşa mətnin özündən çıxış etməsindədir. ...Ədəbiyyat üzrə akademiklərdən tutmuş kiçik elmi işçilərədək alimlərin bütün kitablarını yandırsaq, onların hər birini Əli Rza Xələflinin əsərlərində tapmaq mümkündür" (akademik, ictimai xadim Nizami Cəfərov), "çağdaş ədəbiyyat cəfakeşi" (jurnalist-oxucu, Nəzirməmməd Quliyev), "Əli Rza Xələfli və onun kimi insanlar söz etalonu, ensklopediya, estetik-etik dəyərlərə malik olan, sözündə dəqiq, ciddi, Vətənpərvər, Vətən və maarif üçün özünü şam kimi əridən, dəyərli oxucularına qiymət və hikmət verənhörmətli şəxsiyyətdir" ( istedadı yaşını üstələyən, lap ilk gənclik illərini yaşayan, "könüllərə yol gəzən" orta məktəb şagirdi (14 yaşı var) Sevindik Nəsiboğlu)- və bu qəbildən başqa fikirlər onun bir ziyalı kimi həqiqi qiymətini verən nöqteyi-nəzərlərdir...

Əli Rza ürəklə və səlahiyyətlə "mən sözün özüyəm" deyə bilir və bu həqiqətdir. O, sözün qərənfil rəngini də görə və duya bilir... Əli Rzanın kredosunda Vətən dildən başlayır... Buna görə də, dilin və yurdun sevdalısıdır Əli Rza Xələfli...

Əli Rzanın qələmə aldığı əsərlərin, deyərdim ki, əksəriyyəti ədəbi hadisə qədərinə qədəm qoyur. İndi, isə qənşərimdə onun təzəcə dərc edilmiş dörd hissədən ibarət "Bir bülbülün türküsü" lirik məsnəvi poeması durur... Oxuyuram... Romantik əhvallı minor-mojor duyğular selinə düşürəm...Bu poemada - "Bir bülbülün türküsü..." poeması da, digər poemaları, xüsusilə, "Anamın nağılı" xatirə poeması təkin, və yaxud "Damcılı" (2011), "Azadlığın qanı, yaxud doqquzuncu əsrə məktub". (2011), "Yurd"(2012), "Allahların döyüşü" və s. Hamısı da, klassik formanın müasirlik ladında... Hamısının da, lirik qəhrəmanları, obrazları, surətləri real həyatdan alınıb, müasirlərimizdir... Elə IX əsrin qəhrəmanıBabək də, müasirimiz kimi təqdim edilir...

Diqqət edin, "Göyəzəndən bəri gəl" (2015) - yeddi bəndlik divani ilə bşlayır, "yeri" rədifli 48 bəndlik qoşma, ikinci hissə yenə də eyni rədifli 30 bəndlik qoşma, "Salamat qal" rədifli yeddi bəndlik divani ilə tamamlanır. Əsərin qəhrəmanı müasirimiz, istedadlı şair Barat Vüsaldır, real həyatdan alınmış obraz...

Onun poeziya -ürfan dünyasından bir ölçim buluddur və bir bülbülün sızlar türküsünə çevrilib söz gülüstanına yağan ağ yağışdır...Bülbül obrazıonun könül dünyasında çoxdan yuvalanıbdır. Əli Rzanın hələ 2012-ci ildə qələmə aldığı bir "Bülbül naləsi" əsəri də var. Sonra, "Yarımçıq ömürə elegiya" (2010) essesi gəlir... Bunlar, fikrimcə, nəsrlə yazılmış poeziyadır, "Bir bülbülün türküsü" poemasının yatağıdır, bünövrəsidir...

*(Davamı 9-cu səhifədə)*

*(Əvvəli 8-ci səhifədə)*

Diqqətinizi həmin essedən fraqmentlərə yönəldirəm... Əlirza Xələflinin poemasında yaratdığı gənc filosof Əbil Əbilovun obrazı barəsində qənaəti budur: "Ümumiyyətlə, Əbilin düşüncələrində həyatın axarı təbiətin axarı ilə müvazi götürülür. Mövsümlərin dəyişməsi, kainat kitabının vərəqlənməsinə bənzəyir. Bir sözlə, ya göydəki bulud, ya da yerdəki, dənizin dibindəki yosun gənc Əbilin nəzərində toxunulmazdır, qüdrətlidir, onun mənəvi ölşüləri ilə bu obrazların təkcə əzəməti, gücü-qüdrəti yox, həm də ecazkarlığı, özəllikləri görünür. Gənc Əbil küləklərə müraciət edir, və yalnız onun toxunulmaz hesab elədikləri obrazları küləklər titrətmək gücündə ola bilər. Küləklər zamanın, dövranın, dünyanın obrazıdır. Ona görə dəyişgəndir, ona görə bəzən Allahsızdır, ona görə bəzən haqsızdır. Ona görə, bəzən onun səmti bilinmir.

... Bəlkə, elə gənc Əbili də aparan elə bu küləkdir. Ona ən müxtəlif səbəblər gətirilə bilər. Hələ ki, Əzrayıl adlı mələk bir dəfə ağlaya-ağlaya Tanrının hüzuruna getdi: - Mənim gücüm çatmır, bu, çox ağır işdir bir ucdan insanları öldürmək. Tanrı da ona dedi ki, hərəyə bir bəhanə verirəm, heç kim səndə günah görməyəcək..."

Sonra Əli Rza tarixin ağır-ağrılı gedişatlarına - facivi faktlarına müraciət edir: Mən A. Zeynallını, mən N. Dobrolyubovu, mən E. Qaulanı vaxtsız aparan bəhanə ilə barışa bilmirəm...

Mən M.Müşfiqə görə, bütün bəşəriyyətin əvəzində özümü günahgar bilirəm. Mən V. Belinskiyə görə bu riyakar və ikiüzlü cəmiyyətdə heç vaxt özümü haqsız hesab edə bilmərəm...

İndi gənc Əbilin ölümü üçün kimin məsuliyyət daşıdığını hər kəs özü düşünməlidir. Söhbət elə bir həyatdan gedir ki, onun tale yolu sözdən keçəcəkdi. Sözün qüdrəti ilə onun parlaq obrazı nəinki müasirləri üçün, lap elə gələcəyin insanları üçün bütün aydınlığı ilə görünəcək və qəbul ediləcəkdir...

Onun poetik üslubunda metaforikləşmiş dərin məna yarada bilmə funksiyası hər məqamda özünü göstərir. Poetik üslubun assosiativ təzadlar silsiləsi bu adlar silsiləsinin tarixi mahiyyətinin duyumuna, dərkinə xidmət edir.

Əli Rza Xələfli ümumi epik təsvirdən aralanaraq öz hiss və həyəcanlarını ifadə edir, müxtəlif yönlərdə mühakimələr yürüdür, həyat, insan, cəmiyyət haqqında düşüncələrini ifadə edir, burada bülbül nəğməli lirizm hərtərəfli görünür. Hər bir bədii mətnin, parçanın məna tutumu çox yüksəkdir. Bir qoşa misrada - məsnəvidə obraza elə səmimi, duyğulu yanaşa bilir ki, kiçik mətndə, az sözlə bütöv bir obrazı, xarakteri təqdim edir.



oxudum... Bir də təkrar oxudum... Bəlkə də, oxumadım, bir bulaq suyu təkin başıma (sinəmə) çəkdim... Bu poema ədəbi quraqlıq dövründə, sözə təşnə vaxtımızda mənə yanğımı söndürəcək Xatın bulağının bir ovuc buz suyunu xatırlatdı. Gördüm ki, qədim-qayım kişilərdə olan bir düşüncə dərinliyi var Əli Rzada, amma yeniliklərlə, gənclik enerjisi ilə yoğrulmuş, cilalanmış poetik düşüncə tərzi... Və bu qənaətə gəldim ki, hissilərimi, duyğularımı əzizlərimlə - oxucularımla bölüşüm...

Şairin "Bir bülbülün türküsü..." dörd hissədən ibarət poeması gənc şərqşünas, şərq fəlsəfəsinin aşiqi, istedadlı tədqiqatçı olmuş, lakin vaxtsız-vədəsiz fələyin güdazına getmiş, Səlyan - Muğan bölgəsinin yetirməsi olan, Azərbaycan ədəbiyyatına, elminə layaqətli insanlar bəxş etmiş bir irfan ocağının nümayəndəsi Əbil Əbilovun xatirəsinə həsr edilmişdir. Müəllif əsərinin janrını "düşüncələr poeması" təkin müəyyənləşdiribdir və əslində, bu poema gənc şərqşünas Əbilin obrazı fonunda bütün klassik Şərq - Azərbaycan fəlsəfəsinə, özündə Qərb-Şərq fəlsəfəsi ənənələrini birləşdirən müasir Azərbaycan fəlsəfi fikir şüləyinə, həmçinin Muğan bölgəsinin fikir nəhrinə bir poetik baxışdır, Əli Rzanın lirik-fəlsəfi düşüncələr şüləyidir... Nəğmədir, şərqidir, türküdür, elegiyadır...

Diqqət yetirdinizmi, mən nəğmə və türkü ifadələrini yanaşı işlətdim... Əli Rza isə poemasını "Bir Bülbülün türküsü..." adlandırır və bu ifadə ilə həm əsərinə bir klassik fon verir, həm də, "türkü" sözü ilə türk qövmünün genoloji kodunu ortaya gətirir, nəğmə deyil, türküdür!! Burada iki söz arasında icə, kövrək və gerçəyi əks etdirmiş olan poetik-fikri təzad, sirli bir ovqat yaradır... Belə ki, Əli Rza bu "türkü", özü də "bülbülün türküsü" duyğusunu öz bədii yaradıcılıq müstəvisində "Türkün türküsü" təkin poetik ucalığa yüksəltməyi bacarır...

Qaramıx kollarına əsirdir güllər axı,
Qalınca bir tikana sinəni toxu, bülbül...
Yarımadın yazından güllər də soldu getdi,
Gözlərin tutulsa da, ətrini qoxu, bülbül...

# YARIMÇIQ ÖMÜRƏ ELEGİYA,

## *yaxud sevda notunda "Bir bülbülün türküsü" poeması...*

... "Sevda türküsü"nü yazan qələm həmişə aranacaqdır. Sevdalar əbədiyyət qədər üzünömürlüdür. Nə qədər insanlıq var, sevdalar da, var. Türkülər isə Orxon - Yeniseydən üzü o yana və üzü bəri həmişə müqədəs nəğmələr kimi oxunur..." Bütün bu fikirlər, hisslər "Bir bülbülün türküsü..." poemasına məharətlə, yansıyr, ustlıqla yansıyır, poemanın aparıcı lirk-fəlsəfi motivinə çevrilir...

Bu poemada xalqın ictimai-fəlsəfi fikir tarixi, siyasi-ideoloji düşüncə, zəka və təfəkkür yolu, xüsusilə, müasir azərbaycançıya məxsus mənəvi dəyərlər, yüksəlişlər poetik formullarda, qeybdən gələn səs təkin əksini tapıbdır... Əsası da budur ki, poemada poetik düşüncədə, istedadlı şair improvizəsində yer alan və Azərbaycanın gündoğanı,"Böyük çöl", "Tanrı bağı" adlandırdığıMuğan vilayətinin obrazında simvollaşan, kodlaşan əsas obraz - Böyük Azərbaycan, Bütöv Azərbaycan obrazıdır... Və bu bütövlük bağında, şair Əli Rza obrazında fərdiləşən Bülbül ötür: "Bu bağ sənin bağındır, Nəğməni oxu, bülbül!"

Əli Rzanın, yuxarıda adını çəkdiyim "Anamın nağılı" xatirə-poemasıda bu misralar keçir:

"Gözlərimin önündən ocaqlar, pirlər keçir,
Oyanan yaddaşımdan açılmaz sirlər keçir."

Onun bu, yeni poemasında da, "gözlərinin önündən fəlsəfi fikir tariximizin Yunis Əmrə, Əhməd Yəsəvi, Əbunnəcib Sührəvərdi, Şihabəddin Ömər Sührəvərdi, Şihabəddin Yəhya Sürhəvərdi,Eynəlqüzat Miyanəci, Cəlaləddin Rumi,İbrahim Həqqi, Əbülhəsən Bəhmənyar, Siracəddin Urməvi, Nəsrəddin Tusi, Beyazidi Bistami, Mahmud Şəbüstəri, Məhəmməd Qarabağı, Fəzlullah Nəimi, İmadəddin Nəsimi və s. bukimi elmi-fəlsəfi, bədii-estetik ocaqları, pirləri, irfan sahibləri keçir...

Bu məna tutumu barədə müxtəlif mülahizələr də söyləmək olar. Amma şair sözdə ciddidir, sözü havayı yerə işlətmir. Bu mənada Əli Rzanın ədəbi-fəlsəfi mühakimələri (mühakimələrində mübahisəli məqamlar da az deyil) ciddi marağa səbəb olmaya bilmir.

Əli Rzanın yaradıcılığını həmişə müntəzəm izləmişəm, xüsusən də, poeziya yaradıcılığını... Xoşum gələni də olub, gəlməyəni də... Firkrimi də, onunla səmimi bölüşmüşəm və bir-birimizi də anlaqlı, hörmətlə başa düşmüşük... Onun, ümumən yaradıcılığının mühüm bir cəhəti həmişə məni məmnun edib - Əli Rzanın qələminə məxsus lap kiçik yazıda belə, xüsusən də, poeziyasında bəşərə, mühitə, ətrafına böyük məhəbbətin, etibarın, etimadın, həssaslığın təcəssümünü görmüşəm...

Bir cəhətidə, qeyd edim, keçim bu gün məni tərpədən mövzuya... Əli Rza Xələfli təxəllüsünü götürübdür. Bu onun doğma kəndidir və bu da ənənədən gəlir. Şərq klassiklərinin əksəriyyəti öz doğulduğu məkanların adlarını təxəllüs olaraq qəbul etmişlər və Əli Rza da belə... Amma burada bir gzili qalan mətləb də var, bu da onun şair təbiətində, təfəkkür tərzində olan xələflik missiyyasıdır. Əlirza xələf - sələf problematikasında sələflərinə yaraşan xələflik edə bilir. O, klassik poeziyamızın elədə dəbdə olmayan janrlarına, məsələn - qəzəl, qitə, məsnəvi, minacat, fəxriyyə,mədhiyyə, təxmis təkin lirik janrlarına müasir mövzu və məzmun aşılayaraq onlardan improvizə yoluyla klassik formanın müasirlik ladında ustalıqla, bacarıqla istifadə edir... Və məhz, yaradıcılığının bu məziyyətinə görə Əli Rza Xələflini Azərbaycan klassik poeziyasının söz nəhənglərinin layiqli xələfi olaraq səciyyələndirə bilərik...

İndi, lap isti-isti onun oxuculara təqdim etdiyi "Bir bülbülün türküsü..." lirik-emosional, fəlsəfi poetik-ricət poemasının üstünə gələk... Poemanı

Qönçələri don vurur, gülləri sazaq bükür,
Göylərin gözü dolur dərdli yağışlar tökür,
Böyük çölün üstünə kədər buludu çökür,
Gəl dağıt buludları, bir həzin oxu, bülbül...

Dağlardan yenib düzə, dumanlar tül əvəzi,
Sözümün qəm yağışı, küllüyə kül əvəzi,
Muğan Tanrı bağıdır, yovuşanı gül əvəzi,
Bu bəyazlıq üstündə dərdini toxu, bülbül!

Poemanı oxuduqca mənə elə gəldi ki, şair "bülbül" obrazı ilə şair "mən"ini birləşdirərək uzaq keçmişlərdən günümüzə yol tutub gələn fəlsəfi söz bağçalarının, asma Babil bağlarının qoşa bülbülləridir... Bu lirik türküdə sanki Azərbaycan fikir gülüstanında "şah budağa" qonaraq xalqımızın ən qədim və zəngin hikmət qönçələrindən ilaham alaraq poetik fikir düşüncəsinin türküsünü ötürlər...

Bu bağ sənin bağındır,
Türkünü oxu, bülbül...
Çək döşünə bəxtini,
Var azı, çoxu bülbül...

...Səsin qəlbinə varar,
Ruhu tufan qoparar,
Xələflini aparar,
Əbədi yuxu, bülbül...

Müəllif klassik bülbül obrazına yeni məzmun, yeni məna verə bilib, onu poemanın mərkəzi obrazına çevirərək, sanki Bülbülü insanilədirib. Bu mərkəzi Bülbül obrazında - bir tərəfdən müəllif obrazı, digər tərəfdən poemanın qəhrəmanı, təxəyyülün deyil, həyatın yaratdığı, müasirimiz olan, yaçcan gənc, fikrən "qoca" fiosof Əbil obrazında birləşir...

Əbil kimdir və necə olur ki, o belə bir mükəmməl poemanın qəhrəmanına çevrilir?